# Füzuli Beynəlxalq Hava Limanının açılışı dünya mediasında



***Oktyabrın 26-da Azərbaycan və Türkiyə liderlərinin Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirakı dünya mətbuatının diqqət mərkəzində olub. "Exo Kavkaza" saytında yayınlanan "Əliyev və Ərdoğan Füzulidə Beynəlxalq Hava Limanının açılışını ediblər" başlıqlı xəbərdə bildirilir ki, ötən il İkinci Qarabağ müharibəsi zamanı Bakının nəzarətinə qayıdan Füzuli şəhərində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan beynəlxalq hava limanının açılışını ediblər. Sayt açılış mərasimində prezidentlərə Füzuli hava limanının rəmzi açarlarının təqdim olunduğunu bildirərək əlavə edir ki, Prezident İlham Əliyev 2021-ci ilin yanvarında Füzuli aeroportunun tikintisi ilə bağlı sərəncam verib və obyektin təməl daşını qoyub. Tikinti müddətinin cəmi səkkiz ay çəkməsinə diqqət ayıran "Exo Kavkaza" xatırladır ki, hava limanına ilk sınaq uçuşu avqustun 22-də həyata keçirilib.***

"Hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Hava limanı terminalı saatda 200 sərnişin tutumuna malikdir. Azərbaycanın Baş naziri Əli Əsədovun 16 oktyabr tarixli sərəncamı ilə Füzuli aeroportuna beynəlxalq status verilib, bu barədə məlumat aidiyyəti beynəlxalq təşkilatlara göndərilib. Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) hava limanını FZL kodu ilə beynəlxalq hava limanları siyahısına daxil edib", – məlumatını verən sayt oxucularının diqqətinə çatdırır ki, Füzuli şəhəri 2020-ci il oktyabrın 17-də işğaldan azad edilib və həmin ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev şəhərə gələrək şəxsən Azərbaycan bayrağını qaldırıb.

Sayt cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində iki ölkə liderlərinin Zəngilanda Türkiyənin dəstəyi ilə tikiləcək "Ağıllı aqropark"ın təməlqoyma mərasimində də iştirak etdiklərini vurğulayıb. Bundan əlavə, "Exo Kavkaza" iki ölkə liderlərinin iştirakı ilə Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd və Əhmədbəyli-Füzuli-Şuşa yollarının tikintisinə başlanıldığını da diqqətə çatdırıb.

Rusiyanın **RİA-Novosti** agentliyə Füzuli  hava limanının açılış mərasimi barədə xəbər yayıb. "Əliyev və Ərdoğan Qarabağda yeni hava limanının açılışını ediblər" başlıqlı xəbərində agentlik bildirir ki, 2021-ci il yanvarın 14-də təməli qoyulan hava limanı artıq uçuşları qəbul etməyə başlayıb. İlk sınaq uçuşu avqustun 22-də baş tutub.

Rusiyanın digər xəbər agentliyi TASS da tarixi hadisə barədə məlumat verib. "Əliyev və Ərdoğan Qarabağda Füzuli Beynəlxalq Hava Limanını istifadəyə veriblər" başlıqlı xəbərində TASS vurğulayır ki, hava limanı bütün növ təyyarələri, o cümlədən ağır nəqliyyat təyyarələrini qəbul edə bilər. Oktyabrın 16-da Füzuli hava limanının beynəlxalq status aldığını diqqətə çatdıran agentlik Azərbaycan hökumətinin hesablamalarına istinad edərək yazır ki, Füzuli hava limanının açılması regionun iqtisadiyyatına təkan verməklə yanaşı, turizm potensialının inkişafına da xidmət edəcək. TASS Azərbaycan Prezidenti İlham Əliyevin Füzuli hava limanını "Qarabağın hava qapısı" adlandırmasını da vurğulayıb. Bundan başqa, agentlik hazırda Azərbaycanın Zəngilan və Laçında daha iki hava limanı inşa etdiyini də yazıb.

**Eadaily.com** saytı da hadisə barədə məlumat verib. "Füzuli təyyarələri qəbul etməyə başladı: Ərdoğanla Əliyev hava limanını açıblar" başlıqlı xəbərdə yazılıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycana qısamüddətli səfərə gəlib. Türkiyə liderinin olduğu təyyarə Ankaranın Esenboğa Hava Limanından Qarabağ bölgəsində yeni hava limanının açılış mərasiminin keçirildiyi Füzuli Beynəlxalq Hava Limanına enib. Azərbaycan Prezidenti İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanı hökumət laynerinin keçidində qırmızı xalça üzərində şəxsən qarşıladığına diqqət çəkən sayt əlavə edib ki, Türkiyə liderini səfərdə xarici işlər naziri Mövlud Çavuşoğlu, müdafiə naziri Hulusi Akar və digər nazirlər müşayiət ediblər. Eadaily.com Türkiyə dövlət başçısının Qarabağdakı hərbi uğurdan sonra bölgəyə ikinci səfəri olduğunu da diqqətə çatdırıb.

Rusiyanın **News.ru** saytı "Əliyev və Ərdoğan Qarabağda Füzuli Beynəlxalq Hava Limanının açılışını ediblər" başlıqlı xəbərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli şəhərinə gəlməsi və Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə yeni beynəlxalq hava limanının açılışını etməsi barədə məlumat verilib. Hər iki dövlət başçısına hava limanının rəmzi açarlarının təqdim olunmasını da oxucularının diqqətinə çatdıran News.ru saytı əlavə edir ki, Azərbaycan Hava Yolları" QSC-nin "Qarabağ" adlı Airbus A240-500 sərnişin təyyarəsi sentyabrın 5-də Bakı-Füzuli marşrutu üzrə ilk sınaq uçuşunu həyata keçirib. Sayt, həmçinin açılış mərasimindən əvvəl Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın  Füzuli şəhərinə səfər etmələri barədə də məlumat verib.

**İnfo24.ru** saytı yayınladığı "Əliyev və Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak ediblər" sərlövhəli xəbərində vurğulayır ki, Türkiyə və Azərbaycan prezidentlərinin Füzuli hava limanının açılış mərasimində qırmızı lenti kəsiblər. Bundan başqa, sayt yazır ki, Azərbaycanın nəzarətinə qayıdan Füzuli şəhərində yeni inşa edilən beynəlxalq hava limanının təntənəli açılış mərasimi olub və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak etmək üçün məxsusi olaraq hava limanına gəlib.

Hava limanının tikintisinə 2021-ci il yanvarın ortalarında başlanıldığını vurğulayan info24.ru  əlavə edir ki, Azərbaycan Prezidenti İlham Əliyev hava limanında keçirilən görüşdə Türkiyə dövlət başçısına geri qaytarılmış digər rayonlarda – Ağdam, Zəngilan və başqa rayonlarda aparılan bərpa işlərinin gedişi barədə məlumat verib. Sayt türk şirkətlərinin tikintidə fəal iştirak etdiklərini də diqqətə çatdırıb. İki lider arasında keçirilən görüş zamanı cari regional və beynəlxalq məsələlərin, o cümlədən ikitərəfli əməkdaşlığın da müzakirə olunduğunu vurğulayıb.

**"Moskovski komsomolets"** qəzeti, həmçinin cənab Rəcəb Tayyib Ərdoğanın azərbaycanlı həmkarına Qarabağda yetişən xarı bülbül təsviri olan saat hədiyyə etməsinə diqqət ayırıb. Qəzet yazır ki, görüşdə iki dövlət arasında əməkdaşlığın müxtəlif aspektləri, o cümlədən Qarabağın sonuncu silahlı münaqişənin nəticələrinə görə rəsmi Bakının nəzarətinə qayıdan rayonlarının infrastrukturunun inkişafı istiqamətində müzakirə aparılıb.

**Bigasia.ru** saytında Azərbaycan və Türkiyə dövlət başçılarına hava limanının rəmzi açarlarının təqdim olunduğu bildirilib və ötən ilin payızında Qarabağda hərbi əməliyyatlar nəticəsində Azərbaycanın nəzarətinə qayıdan Füzuli şəhərində beynəlxalq hava limanının cəmi 8 aya tikildiyi vurğulanıb.  "Vzqlyad" saytında yayımlanmış "Əliyev və Ərdoğan Qarabağda beynəlxalq hava limanının açılışını ediblər" sərlövhəli xəbərdə bildirilir ki, 2021-ci il yanvarın 14-də təməli qoyulan hava limanı cəmi səkkiz aydan sonra təyyarələri qəbul etməyə başlayıb. Avtomatik sistemlərlə təchiz edilmiş, beynəlxalq mülki aviasiya və nəqliyyat standartlarına uyğun idarəetmə otağı olan hava limanının tikintisində türk şirkətlərinin də iştirak etdiyini vurğulayan sayt Prezident İlham Əliyevin yanvar ayında bir il ərzində Qarabağda beynəlxalq hava limanı tikəcəyinə söz verdiyini də xatırladıb.

Paksitanın **urdupoint.com** saytı da tarixi hadisə barədə xəbər verib. "Əliyev və Ərdoğan Qarabağın Füzuli şəhərində beynəlxalq hava limanını istifadəyə veriblər" xəbərində sayt əlavə edir ki, hər iki prezident hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər. Sayt, həmçinin oxucularının diqqətinə çatdırır ki, Azərbaycanın Silahlı Qüvvələri Füzulini 2020-ci ildə işğaldan azad ediblər.

Hindistanın **Morningexpress.in** saytı "Azərbaycan: Ərdoğan həmkarı Əliyevin gözlədiyi Füzuliyə gəlib" başlıqlı xəbərində yazır ki, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan özəl "TUR" təyyarəsi ilə Füzuliyə gəlib. Sayt bildirir ki, Prezident Ərdoğanın təyyarəsi Azərbaycanın erməni işğalından azad edilmiş Qarabağ torpaqlarında inşa edilən ilk aeroport olan Füzuli Beynəlxalq Hava Limanına eniş edib. "Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qarşılanan cənab Ərdoğan Füzuli Beynəlxalq Hava Limanına enən ilk prezidentdir", – yazan Morningexpress.in əlavə edir ki, yeni hava limanının açılış lentini kəsən cənab Ərdoğan və cənab Əliyev daha sonra hava limanının binasına baş çəkiblər.

ABŞ-ın **Exbulletin.com** saytında da tarixi hadisəyə yer verilib. "Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub" xəbərində sayt yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər. Sayt bildirir ki, Qarabağın hava qapısı kimi tanınan Füzuli Beynəlxalq Aeroportu ən müasir standartlara uyğun inşa edilib. Hava limanı istənilən növ təyyarələri qəbul etmək imkanına malikdir. Hava limanında görülən bütün işlərin beynəlxalq normalara və standartlara uyğun həyata keçirildiyini vurğulayan Exbulletin.com oxucularının diqqətinə çatdırır ki, hava limanının ətrafında geniş abadlıq işləri aparılıb. Avtomatlaşdırılmış sistemlərlə təchiz edilmiş hava hərəkətini idarə edən qüllə tikilmişdir. Bu, Füzuli Beynəlxalq Hava Limanından uçuşların ICAO və IATA standartlarına uyğun həyata keçirilməsinə imkan verir. Sayt, həmçinin vurğulayır ki, hava limanında baqaj daşıyıcıları, qeydiyyat sistemi, VIP salonlar, mağazalar, restoranlar və digər zəruri obyektlər quraşdırılıb. Sərnişinlərin rahatlığı üçün bütün meyarlar nəzərə alınıb. Saytda, həmçinin qeyd olunub ki, Zəngilan və Laçında da beynəlxalq hava limanları tikilir və onların tikintisi regionun nəqliyyat imkanlarını daha da genişləndirəcək.

***Təqdim etdi:***
***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 28 oktyabr.- S.3.